Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan konsertdə Azərbaycanla yanaşı, Belarus, Çin, Qırğızıstan, Rusiyadan olan istedadlı uşaqlar Kreml Sarayının Georgiyevsk zalında Prezident orkestri ilə birgə çıxış edərək məharətlərini göstəriblər.

Qeyd edək ki, beynəlxalq müsabiqələr laureatı olan Çinarə uğurları ilə seçilir. Musiqi məktəbinin yetirməsi bir qədər əvvəl Estoniyanın Koxtla-Yarve şəhərində keçirilən beynəlxalq müsabiqədə və Latviyanın Riqa şəhərində gənc vokalçıların "Riqa Symphony" beynəlxalq müsabiqəsində iştirak edərək hər iki tədbirin Gran- Pri mükafatına layiq görülüb.